# Pefrakehl® D5

**Təsiredici maddə:**
Candida parapsilosis e volumine cellulae dil. D5

**TƏRKİB:** 10 ml durulaşdırılmış məhlulda: Candida parapsilosis e volumine cellulae dil. D5 məhlulu 10 ml




Pefrakehl D5 – yoluxmuş dəri , dırnaq yatağı , xarici qulaq keçəcəyi və insan endokardından alınmış Candida parapsilosis göbələyinin liofilizatıdır.

## FARMAKOLOJİ XASSƏLƏRİ:

Antimikotik təsir - T-limfositlərin və onlar tərəfindən tanınan göbələk antigenlərinin aktivləşdirilməsi və anticisim istehsalının stimullaşdırılması yolu ilə immun müdafiənin gücləndirilməsi hesabına həyata keçirilir. Xroniki göbələk infeksiyasının aradan qaldırılması və bununla əlaqəli toxumaların antimikrob müqavimətinin artması hesabına antibakterial və antiviral təsir göstərir.

Pefrakehl® D5 preparatı simbiozu bərpa edir, bağırsaq, dəri və selikli qişaların mikozunun müalicəsi üçün istifadə edilir.

## GÖSTƏRİŞLƏR:

- xarici mikozlar, xüsusən kandidoz (dermatomikoz, ayaq - , əl- , dəri büküşləri, genital mikozlar), səthi kandidoz, əlvan dəmrov, eritrazma, sızanaqlar
- bağırsaq mikozu
- sidik-cinsiyyət sisteminin iltihabı (sistit, pielonefrit) xəstəlikləri
- respirator traktın xəstəlikləri
- ağız boşluğunun bakterial və ya viral xəstəlikləri (çatlar, aftlar, pemfiqus, diş qranulomaları), xarici otit
- limfadenit, adneksit, qastroenterit, xole- və hepatopatiya.







## İSTİFADƏ QAYDASI:

**Böyüklər və 8 yaşdan yuxarı uşaqlar üçün:**

**Daxilə qəbul: 8 damcı gündə 1-2 dəfə yeməkdən 30 dəq. əvvəl, yaxud 1 saat sonra dilaltı; 5-10 damcı gündə 1 dəfə zədələnmiş nahiyəyə, yaxud dirsək büküşünə sürtmək , inhalyasiya üçün: gündə 2-3 dəfə 10- 20 dərin nəfəsalma**

**Uşaqlar üçün: 8 yaşa qədər hər yaşa 1 damcı gündə 1-2 dəfə dilaltı**




## Əks göstərişlər:

**Candida parapsilosis-ə qarşı hiperhəssaslıq**
**-autoimmun xəstəliklər**
**- Hamiləlik və laktasiya dövrü**
**- 12 yaşadək uşaqlarda həkim məsləhətindən sonra istifadə etməli**

## Əlavə təsirləri:

**Pefrakehl® D5-in tərkibindəki spesifik üzvi komponentlərə görə nadir hallarda hiperhəssaslıq reaksiyaları ola bilər. Belə olduqda qəbulu dayandırıb həkimə müraciət etmək lazımdır.**

**Buraxılış forması:** **Flakon 10 ml.**

SANUM KEHLBECK

Azərbaycanda eksklüziv distribyutor “PLANETA” İKŞ
Tel: Baş ofis: (012) 430 89 49 Aptek: (012) 430 30 10

info@planeta.az www.planeta.az Planeta.aptek